# “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi” Publik Hüquqi Şəxs

**Maliyyə Hesabatları və Müstəqil Auditor Rəyi**
31 dekabr 2023-cü il tarixində başa çatmış il üzrə

**MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ ÜZRƏ RƏHBƏRLİYİN MƏSULİYYƏTİNİN BƏYANI**

31 DEKABR 2023-CÜ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ

Müstəqil auditor hesabatının 2-ci səhifədə təqdim olunmuş müstəqil auditor rəyində şərh edilən müstəqil auditorların məsuliyyətinə uyğun oxunmalı olan bu hesabat "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi" Publik Hüquqi Şəxsin (bundan sonra "Agentlik") maliyyə hesabatları ilə bağlı rəhbərliyin müvafiq məsuliyyətini müstəqil auditorların məsuliyyətindən fərqləndirmək məqsədilə hazırlanmışdır.

Rəhbərlik Agentliyin 31 dekabr 2023-cü il tarixinə maliyyə vəziyyətini, əməliyyatlarının nəticələrini və həmin tarixdə başa çatmış il üzrə pul vəsaitlərinin hərəkətini, kapitalda dəyişikliklər hesabatını düzgün və Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına müvafiq qaydada əks etdirən maliyyə hesabatlarının hazırlanmasına görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərlik aşağıdakılar üzrə məsuliyyət daşıyır:

- Uyğun mühasibat prinsiplərinin seçilməsi və mütəmadi olaraq tətbiq edilməsi;
- Məntiqli və məqsədəuyğun təxminlərin və qərarların qəbul edilməsi;
- Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarıa uyğunluğun bəyan edilməsi və əgər bu standartlardan əhəmiyyətli kənarlaşmalar varsa, bu halların maliyyə hesabatlarında açıqlanması və izah edilməsi;

Rəhbərlik həmçinin aşağıdakı məsələlər üzrə məsuliyyət daşıyır;

- Agentliyin maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarıa uyğun olaraq düzgün hazırlanması və Təşkilatın maliyyə vəziyyətini istənilən zaman düzgün əks etdirən mühasibat sisteminin təşkil edilməsi;
- Yerli mühasibat sisteminin qanunvericilik və Azərbaycan Respublikasının mühasibat standartlarına uyğun olaraq təşkil edilməsi;
- Saxtakarlıq, yanlışlıq və digər qanunauyğunsuzluq hallarının müəyyən edilməsi və qarşısının alınması.

31 dekabr 2023-cü il tarixində başa çatmış il üzrə maliyyə hesabatlarının bəyan olunması 30 aprel 2024-cü il tarixində Rəhbərlik tərəfindən təsdiq olunmuşdur.

**Əhməd İsmayılov**
**İcraçı Direktor**

30 aprel 2024-cü il
Bakı, Azərbaycan Respublikası

**Orxan Hümbətzadə**
**Maliyyə və Təminat**
**Departamentinin Direktoru**

30 aprel 2024-cü il
Bakı, Azərbaycan Respublikası

**MÜSTƏQİL AUDİTORUN HESABATI**

**"Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi" Publik Hüquqi Şəxsi və Rəhbərliyinə:**

## *RƏY*

Biz, "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi" Publik Hüquqi Şəxsinin 31 dekabr 2023-cü il tarixinə maliyyə vəziyyəti, mənfəət və ya zərər və digər məcmu gəlirlər, kapitalda dəyişikliklər və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti haqqında hesabatlarından, habelə mühasibat uçotunun əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən izahedici qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

Hesab edirik ki, əlavə edilmiş maliyyə hesabatları Agentliyin 31 dekabr 2023-cü il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə düzgün əks etdirir.

## *Rəy üçün əsaslar*

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz Azərbaycan Respublikasının Qanunvericiliyinə əsasən maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının Peşəkar Mühasiblərin Etika Məcəlləsinin tələblərinə uyğun olaraq Agentlikdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu məcəllənin tələblərinə uyğun yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

## *Əsas audit məsələləri*

Əsas audit məsələləri bizim peşəkar mühakiməmizə görə cari dövrün maliyyə hesabatlarının auditində ən əhəmiyyətli məsələlərdir. Bu məsələlər maliyyə hesabatlarının auditi baxımından və maliyyə hesabatlarına dair rəyimizin formalaşdırılmasında bütövlükdə nəzərə alınmışdır və biz bu məsələlərə dair ayrılıqda rəy vermirik.

***Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti***

Rəhbərlik maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Agentliyi ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Agentliyin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Agentliyin maliyyə hesabatlarının təqdim edilməsi prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

## *Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti*

Bizim məqsədimiz təqdim edilmiş maliyyə hesabatlarında dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını tərtib etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkar edir. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq istifadəçilərin belə edilmiş maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda əhəmiyyətli hesab edilir.

AZƏRBAYCAN RESPUBLİKASI / AZERBAIJAN REPUBLIC / TAX AUDIT / LIMITED LIABILITY COMPANY / MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏT

**Rəşid Balakişiyev**
**Direktor və auditor**

25 iyul 2024-cü il
Bakı, Azərbaycan Respublikası

**“Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi” PHŞ**

**Mənfəət və ya zərər və digər məcmu gəlirlər haqqında hesabat**
31 dekabr 2023-cü il tarixində başa çatmış il üzrə
*(Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31.12.2023 | 31.12.2022 |
|---|---|---|---|
| Əsas gəlir | *5* | 6 529 396 | 6 780 007 |
| Əsas xərc | *6* | (6 401 459) | (6 199 006) |
| **Ümumi mənfəət** | | **127 937** | **581 001** |
| Sair gəlirlər | *5* | 10 020 | - |
| İnzibati xərclər | *6* | (93 964) | (189 920) |
| Sair xərclər | *6* | (7 900) | - |
| **Əməliyyat mənfəəti (zərəri)** | | **36 093** | **391 081** |
| Maliyyə gəliri | | - | - |
| Maliyyə xərcləri | *6* | - | - |
| **Vergiqoymadan əvvəl mənfəət (zərər)** | | **36 093** | **391 081** |
| **Mənfəət vergisi xərcəri** | | - | - |
| Cari vergi xərci | *7* | - | - |
| Təxirə salınmış vergi gəliri | *7* | - | - |
| **Hesabat dövrünün xalis mənfəəti (zərəri)** | | **36 093** | **391 081** |

**Rəhbərlik tərəfindən:**

**Əhməd İsmayılov**
**İcraçı Direktor**

30 aprel 2024-cü il
Bakı, Azərbaycan Respublikası

**Orxan Hümbətzadə**
**Maliyyə və Təminat Departamentinin Direktoru**

30 aprel 2024-cü il
Bakı, Azərbaycan Respublikası

7-20-ci səhifələrdə izah olunmuş qeydlər bu maliyyə hesabatlarının ayrılmaz hissəsidir. Müstəqil auditor rəyi 2-ci səhifədə təqdim olunmuşdur.

**"Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi" PHŞ**

**Maliyyə vəziyyəti haqqında hesabat**
31 dekabr 2023-cü il tarixində başa çatmış il üzrə
*(Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31.12.2023 | 31.12.2022 |
|---|---|---|---|
| **AKTIVLƏR** | | | |
| **UZUNMÜDDƏTLİ AKTİVLƏR:** | | | |
| Qeyri-maddi aktivlər | *8* | 631 330 | 627 131 |
| Torpaq, tikili və avadanlıq | 9 | 22 022 252 | 22 072 040 |
| Sair uzunmüddətli maliyyə aktivləri | *10* | 1 365 | 2 652 |
| Təxirə salınmış vergi aktivi | *7* | - | - |
| **CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR:** | | **22 654 947** | **22 701 823** |
| **QISAMÜDDƏTLİ AKTİVLƏR:** | | | |
| Ehtiyatlar | *11* | 108 960 | 83 642 |
| Qısamüddətli debitor borcları | *12* | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | *13* | 2 383 896 | 354 960 |
| Sair qısamüddətli aktivlər | *14* | 3 500 | - |
| **CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR:** | | **2 496 356** | **438 603** |
| **CƏMİ AKTİVLƏR** | | **25 151 304** | **23 140 425** |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | | |
| **KAPİTAL:** | | | |
| Ödənilmiş nominal (nizamnamə) kapitalı | *15* | 285 405 | 285 405 |
| Kapital ehtiyyatları | | 22 445 719 | 22 500 060 |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | | 41 258 | 5 165 |
| **CƏMİ KAPİTAL:** | | **22 772 382** | **22 790 630** |
| **UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR:** | | | |
| Uzunmüddətli kreditor borcları | *16* | - | - |
| **QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR:** | | | |
| Qısamüddətli kreditor borcları | *17* | 4 281 | 1 175 |
| Sair qısamüddətli öhdəliklər | *18* | 2 374 641 | 348 620 |
| | | **2 378 922** | **349 795** |
| **Cəmi öhdəliklər** | | **2 378 922** | **349 795** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | **25 151 304** | **23 140 425** |

**Rəhbərlik tərəfindən:**

**Əhməd İsmayılov**
**İcraçı Direktor**

30 aprel 2024-cü il
Bakı, Azərbaycan Respublikası

**Orxan Hümbətzadə**
**Maliyyə və Təminat Departamentinin Direktoru**

30 aprel 2024-cü il
Bakı, Azərbaycan Respublikası

7-20-ci səhifələrdə izah olunmuş qeydlər bu maliyyə hesabatlarının ayrılmaz hissəsidir. Müstəqil auditor rəyi 2-ci səhifədə təqdim olunmuşdur.

**"Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi" PHŞ**

**Kapitalda dəyişikliklər haqqında hesabat**
31 dekabr 2023-cü il tarixində başa çatmış il üzrə
*(Azərbaycan manatı ilə)*

| | Ödənilmiş nizamnamə kapitalı | Kapital Ehtiyyatları | Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | Cəmi kapital |
|---|---|---|---|---|
| **31 dekabr 2022-ci il tarixinə qalıq** | **285 405** | **22 500 060** | **5 165** | **22 790 630** |
| Hesabat dövründə xalis mənfəət (zərər) | - | - | *36 093* | *36 093* |
| Dividend | - | - | - | - |
| Kapitalda düzəliş | - | *(54 341)* | - | *(54 341)* |
| **31 dekabr 2023-ci il tarixinə qalıq** | **285 405** | **22 445 719** | **41 258** | **22 772 382** |
| ***2023-cü il üzrə kapitalda ümumi dəyişikliklər*** | - | *(54 341)* | *36 093* | *(18 248)* |
| | | | | |
| **31 dekabr 2021-ci il tarixinə qalıq** | **285 405** | **-** | **-** | **285 405** |
| Hesabat dövründə xalis mənfəət (zərər) | - | - | *391 081* | *391 081* |
| Dividend | - | - | - | - |
| Kapitalda düzəliş | - | *22 500 060* | *(385 916)* | *22 114 144* |
| **31 dekabr 2022-ci il tarixinə qalıq** | **285 405** | **22 500 060** | **5 165** | **22 790 630** |
| ***2022-ci il üzrə kapitalda ümumi dəyişikliklər*** | - | *22 500 060* | *5 165* | *22 505 225* |

**Rəhbərlik tərəfindən:**

**Əhməd İsmayılov**
**İcraçı Direktor**

30 aprel 2024-cü il
Bakı, Azərbaycan Respublikası

**Orxan Hümbətzadə**
**Maliyyə və Təminat Departamentinin Direktoru**

30 aprel 2024-cü il
Bakı, Azərbaycan Respublikası

7-20-ci səhifələrdə izah olunmuş qeydlər bu maliyyə hesabatlarının ayrılmaz hissəsidir. Müstəqil auditor rəyi 2-ci səhifədə təqdim olunmuşdur.

**“Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi” PHŞ**

**Pul vəsaitinin hərəkəti haqqında hesabat**
31 dekabr 2023-cü il tarixində başa çatmış il üzrə
*(Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31.12.2023 | 31.12.2022 |
|---|---|---|---|
| Büdcədən daxil olan pul vəsaitləri | | 8 529 396 | 6 655 016 |
| Büdcədən kənar daxil olan pul vəsaitləri | | 10 020 | 125 411 |
| Təchizatçılara ödənilən pul vəsaitləri | | (1 296 980) | (1 172 207) |
| İşçilərin əmək haqqı ilə bağlı xərcləri | | (363 709) | (506 916) |
| Digər vergilərə görə xaricolmalar | | (113 334) | - |
| **Əməliyyatlardan əldə olunan pul vəsaitləri** | | **6 765 394** | **5 101 304** |
| Ödənilmiş mənfəət vergisi | | - | - |
| **Əməliyyat fəaliyyətindən xalis pul vəsaitlərinin hərəkəti** | | **6 765 394** | **5 101 304** |
| Əsas vəsaitlərin satışı | | - | - |
| Əsas vəsaitlərin alışı | | (92 973) | (516 936) |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti** | | **(92 973)** | **(516 936)** |
| Dividend ödənişi | | - | - |
| Məqsədli maliyyələşdirmə şəklində pul vəsaitlərinin artması (azalması) | | (4 643 484) | (4 454 633) |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən yaranan pul vəsaitlərinin hərəkəti** | | **(4 643 484)** | **(4 454 633)** |
| Mübadilə məzənnələrinin dəyişməsinin təsiri | | - | - |
| **Pul vəsaitləri və onların ekvivalentlərinin artması (azalması)** | | **2 028 936** | **129 735** |
| Pul vəsaitləri və onların ekvivalentləri, *ilin əvvəlində* | *13* | 354 960 | 225 225 |
| Pul vəsaitləri və onların ekvivalentləri, *ilin sonunda* | *13* | 2 383 896 | 354 960 |
| **Pul vəsaitləri və onların ekvivalentlərinin komponentləri** | | - | - |
| Pul vəsaitləri | | 2 383 896 | 354 960 |
| Bank depoziti | | - | - |

**Rəhbərlik tərəfindən:**

**Əhməd İsmayılov**
**İcraçı Direktor**

30 aprel 2024-cü il
Bakı, Azərbaycan Respublikası

**Orxan Hümbətzadə**
**Maliyyə və Təminat Departamentinin Direktoru**

30 aprel 2024-cü il
Bakı, Azərbaycan Respublikası

7-20-ci səhifələrdə izah olunmuş qeydlər bu maliyyə hesabatlarının ayrılmaz hissəsidir. Müstəqil auditor rəyi 2-ci səhifədə təqdim olunmuşdur.